Səh. 2 Məktəbi bağçaya çevirənlər – Azər Musaoğlu
Səh. 5 Mən insanam! – Alina Fətullayeva
Səh. 5 Medianın gündəlik həyatımızdakı rolu – Çiyalə Osmanova
Səh. 6 Yetişə bilmədiyimiz sabahlar – Aytən Fətullayeva
Səh. 3 Yas məclisi, yoxsa yağlı aş məclisi? – Hacı Bəkiroğlu
Səh. 4 MÜVAFİQ TƏHSİLİ OLMAYAN BAĞÇA MÜƏLLİMLƏRİ PEDAQOQ STATUSU ALA BİLMƏYƏCƏKLƏR
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2023-CÜ İL
№ 009 (180)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TÜRKİYƏDƏ PREZİDENT SEÇKİLƏRİNİN İKİNCİ TURU KEÇİRİLƏCƏK




Türkiyənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğan prezident seçkilərinin ikinci turunda qələbə qazanacağına əminliyini ifadə edib. Bu barədə Ərdoğan özünün tviter səhifəsində yazıb.

“Biz mayın 14-nə nisbətən ayın 28-də daha çox səs qazanacağıq və qalib gələcəyik. İnşallah, tarixi bir uğura imza atacağıq”, – deyə o qeyd edib.

Qeyd edək ki, Türkiyədə mayın 14-də keçirilən prezident seçkilərində namizədlərin heç biri 50 faizdən çox səs toplamadığı üçün səsvermənin ikinci turu keçiriləcək. Bunu Türkiyə Yüksək Seçim Kurulunun (MSK) sədri Ahmet Yener bildirib. Onun sözlərinə görə, prezident seçkilərinin ikinci turunun bazar günü, mayın 28-də keçirilməsi qərara alınıb.

MSK-nın sədri deyib ki, yerli vaxtla saat 15:15-dək seçki qutularının hamısı açılıb. Hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan 49,51 faiz, müxalifətin lideri Kemal Kılıçdaroğlu 44,88 faiz, ATA ittifaqının namizədi Sinan Oğan 5,7 faiz səs toplayıb. Seçici fəallığı 88,92 faiz təşkil edib.

Türkiyə Böyük Millət Məclisi (TBMM) seçkilərində isə məclisin 600 yeni üzvü xalq tərəfindən seçim vasitəsi ilə təyin edilib. TBMM-də say çoxluğunu “Cümhur İttifaqı” əldə edib.

Prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıçdaroğlu mübarizə aparacaq və qalib sadə səs çoxluğu ilə müəyyənləşəcək.

## APPATURAY: UKRAYNA MƏĞLUB OLARSA, GÜRCÜSTAN ÜÇÜN TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ SON DƏRƏCƏ ÇƏTİNLƏŞƏCƏK



NATO müttəfiqləri Gürcüstanda qütbləşmənin zəruri islahatların həyata keçirilməsinin qarşısını almasından narahatdır. Bunu Gürcüstanda səfərdə olan NATO baş katibi köməkçisinin müavini Ceyms Appaturay jurnalistlərə açıqlamasında bildirib:

“Mənim parlamentarilərə verdiyim mesaj sirr deyil və çox sadədir – islahatlar davam etməlidir, biz siyasi qütbləşmənin bəzi islahatları blokladığından narahatıq. Müttəfiqlər aydın islahatların həyata keçirilməsini görmək istəyirlər”.

Appaturay vurğulayıb ki, NATO Rusiya qoşunlarının paytaxt Tbilisidən çox da uzaqda olmadığını nəzərə alaraq Gürcüstanın üzləşdiyi çətin durumunu anlayır, bununla belə bütün ölkələr bacardıqları çərçivədə Ukraynaya maksimum dəstək verməlidirlər.

Appaturay əlavə edib ki, Ukraynanın müharibədə məğlub olması Gürcüstan üçün təhlükəsizlik məsələlərini son dərəcə çətinləşdirə bilər.

“Ukraynanın sadəcə məğlub olmaması deyil, həm də qalib gəlməsi əsasdır. Çünki Ukrayna məğlub olarsa, həm Gürcüstan, həm də bizim hamımız üçün təhlükəsizlik məsələləri son dərəcə çətin olacaq ”, – Appaturay bildirib.

## PUTİN VİZA REJİMİNİ LƏĞV EDİR, ZURABİŞVİLİ BU QƏRARI QƏBULEDİLMƏZ ADLANDIRIR, QARİBAŞVİLİ VƏ DARÇİAŞVİLİ İSƏ ALQIŞLADIĞINI BİLDİRİR



Gürcüstan Prezidenti Salome Zurabişvili Ukraynadakı vəziyyətlə əlaqədar Rusiya Prezidenti Vladimir Putinin viza rejimini ləğv etməsinə dair qərarını təxribat və qəbuledilməz adlandırıb. Bu barədə Gürcüstan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Gürcüstan xarici işlər naziri İlia Darçiaşvili isə məsələyə münasibət bildirərək deyib ki, Gürcüstan Rusiyanın bu ölkə ilə viza rejiminin ləğv etməsi qərarını alqışlayır.

Onun sözlərinə görə, Rusiya Federasiyasında 1 milyondan çox Gürcüstan vətəndaşı yaşayır, onların Gürcüstanda yaşayan qohumları və yaxınları ilə çox sıx əlaqələri var və qərar vətəndaşlarımızın gündəlik həyatını asanlaşdıracaq:



“Bizim 1 milyondan çox vətəndaşımız Rusiya Federasiyasında yaşayır və onların Gürcüstanda yaşayan doğmaları ilə, qohumları ilə yaxın əlaqələri var. Bu qərar humanitar nöqteyi-nəzərdən istənilən məsuliyyətli hökumət tərəfindən alqışlanılandır. Bu qərar bizim vətəndaşlarımızın yaşayış şəraitini asanlaşdıracaq və onların bir-birləri ilə əlaqə saxlamasına, bir-birlərini ziyarət etmələrinə imkan verəcək”.

Rusiyanın birbaşa uçuşları bərpa etməsini və Gürcüstan vətəndaşları üçün viza rejimini ləğv etməsini Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də alqışladığını bildirib. Hökumət başçısı jurnalistlərə açıqlamasında bu addımın müsbət fakt və qərar olduğunu deyib:

“Rusiyada bir milyon etnik gürcü, bizim həmvətənlərimiz var. Onların hərəkətini asanlaşdırmaq vacibdir.

Superdövlət olan Çin, bizim dostumuz və qonşumuz, NATO üzvü olan və Aİ namizədi statusuna malik Türkiyə, eləcə də BƏƏ, ABŞ-ın əsas strateji tərəfdaşlarından biri olan və mənim üçün bir sıra istiqamətlərdə nümunə olan İsrail – onlar hər zaman bütün dövlətlərlə əlaqələrində öz milli siyasətlərini həyata keçirirlər, eləcə də Azərbaycan və Ermənistan. Bütün bu ölkələrin Rusiya ilə sanksiyalara məruz qalmayan təyyarələrlə birbaşa uçuşları var”.

Qeyd edək ki, mayın 10-da Rusiya Prezidenti Vladimir Putin Rusiya ilə Gürcüstan arasında viza rejiminin ləğvinə dair sərəncam imzalayıb. Sərəncama əsasən, mayın 15-dən Gürcüstan vətəndaşları üçün viza rejimi ləğv olunur. Bundan sonra Gürcüstan vətəndaşları 90 gün Rusiyaya vizasız səyahət edə biləcəklər. Eyni zamanda, Rusiya aviaşirkətlərinə Gürcüstana uçuş qadağası da ləğv olunub.

Həmçinin Rusiya Xarici İşlər Nazirliyi rusiyalılara Gürcüstana səfərdən çəkinmək tövsiyəsini də ləğv edib. Bu barədə Rusiya XİN məlumat yayıb.



Xatırladaq ki, 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra Moskva Gürcüstanla viza rejimi tətbiq etmişdi.



# MƏKTƏBİ BAĞÇAYA ÇEVİRƏNLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Gürcüstan parlamenti tezləşdirilmiş qayda ilə üçüncü oxunuşda "Ümumi təhsil haqqında" qanuna dəyişikliyi 84 səslə qəbul etdi. Dəyişikliyə əsasən, noyabrın 1-nə kimi, yəni 31 oktyabr da daxil olmaqla 6 yaşı tamam olan uşaqlar birinci sinfə qəbul ediləcəklər. Daha dəqiq desək, sentyabrın 15-də 5 yaşındakı uşaqlar da gözəl-göyçək geyinib-keçinib 5 kiloqrama yaxın olan başlarından ağır dərsliklərlə dolu yaşlarından ağır məktəb çantaları bellərində valideynlərinin əllərindən tutaraq məktəbə gedəcəklər.

Çox gözəl! Uşaqların məktəbə getməsindən, parta arxasında oturub müəllimi dinləməsindən, yazı yazmasından, kitab oxumasından, elm öyrənməsindən gözəl mənzərə hələ ki yoxdur bu gəlimli-gedimli, son ucu ölümlü dünyada. Məktəblərin inkişafı, tədrisin keyfiyyətinin artırılması, müəllim əməyinin layiqincə qiymətləndirilməsi, təhsilin hamı üçün əlçatanlığı sevindirici haldır və bütün bunlara sevinməyən insan olmaz, olsa da o şəxsdə vicdan olmaz.

Uşaqların 5 yaşında məktəbə qəbul edilməsinə isə ən çox sevinən valideynlər oldu. Yeni qaydanın qəbul olunmasında bir-iki aya görə uşağını birinci sinfə qoya bilməyən valideynlərin etirazlarının payı da var desək müxalifətçilik etmiş olmarıq.

Ümumiyyətlə, hər cəhətdən normal ölkələrdə hansısa bir qanunu qəbul etməmişdən əvvəl mütəxəssislər işə başlayır, onu müzakirə edirlər, yaxşı və pis tərəflərini öyrənirlər, gələcəkdə törədə biləcək fəsadlarını, çatışmamazlıqlarını araşdırırlar, ictimaiyyətə ətraflı məlumat verirlər və sair. Hər cəhətdən anormal ölkələrdə isə kimsə özünün və əsil-nəsəbinin mənafeyini qorumaq və nəsildən nəslə ötürmək üçün "qayda-qanun" fikirləşir, bu "qayda-qanun" haqqında ictimaiyyətə heç bir məlumat verilmədən birbaşa parlamentdə tezləşdirilmiş qaydada qəbul elətdirərək icrasına əmr verir.

Uşağın məktəbə tez getməsi, yazıb-oxumağı tez öyrəşməsi, sosiallaşması pis deyil, amma bu, şagirdi 7 yaşından qəbul etməyə öyrəşmiş məktəblərdə; hələ də sovet təlim və tədris metodikası ilə dərs keçən müəllimlərin olduğu məktəblərdə; başı imtahanlara, portfoliolara, təlimlərə, bürokratik kağız-kuğuza qarışaraq öz hayında olaraq şagirdi yaddan çıxardan müəllimlər olan məktəblərdə; proqramları 5 yaşındakı uşaq üçün uyğun olmayan məktəblərdə; 5 yaşındakı uşağın yemək yeyə biləcəyi şəraiti olmayan məktəblərdə; 5 yaşındakı uşağın təbii ehtiyacını ödəyə biləcək tualeti olmayan məktəblərdə; kvalifikasiyalı həkim və psixoloqu olmayan məktəblərdə mümkün deyil. Psixoloq demiş, bu qanun qəbul edilməmişdən qabaq işə birinci mütləq uşaq psixoloqları və həkimlər qatılmalı idi.

Sən 5 yaşındakı uşağı məktəbə qəbul elətdirməklə deyil, o uşaq psixoloji olaraq yeni mühitə, yeni rejimə, sərt nizam-intizama, çətin dərs proqramına hazırdırmı? Mən uşaq tanıyıram 5 yaşındadır hələ də "Pampers"ə zad eliyir. 5 yaş qalsın bir kənara, 6 yaşındakı uşağı sinifdə 10 dəqiqədən artıq saxlamağın necə çətin olduğunu müəllimlər yaxşı bilir, öz təcrübəmdən irəli gələrək yazıram bunu. İnanmırsınız, gedin birinci siniflərin dərsində oturun, görün müəllimlər nə əziyyət çəkir. Uşağının əlindən bezib başından əkən heç bir valideyn o siniflərdə on dəqiqə tab gətirməz. Şəxsən mən uşaqlarla birlikdə atılıb-düşürdüm, mahnı oxuyurdum, pişik kimi miyoldayırdım, it kimi hürürdüm, inək kimi movuldayırdım, bir sözlə, "Old MacDonald"ın fermasındakı bütün heyvanların səsini çıxarırdım ki, uşaq "müəllim mən acmışam" deyib durub evə getməsin.

Valideyn tələb edir. Valideyn çox şey tələb edə bilər. Valideyn var 2 yaşı tamam olmamış uşağını aparıb baxçaya qoyur, axı 2 yaşı tamam olmamış uşaq bağçada nə öyrənəsidir, onun hələ ana nəvazişinə, ana qucağına, ana sevgisinə ehtiyacı var. İnanın, nazir qərar qəbul etsə ki, uşaqlarınızı birinci sinfə 4 yaşında qəbul edirik, ən çox sevinən bu cür valideynlər olacaqlar. Uşağınızın başından keçmisiniz məgər? Hara tələsirsiniz axı? Uşaq 5 yaşında da məktəbə getsə məktəbi bitirəcək, 6 yaşında da, 7 yaşında da. Məsələn, mən birinci sinfə 7 yaşında getmişəm...

Hələ 4-5 yaşlı uşağını idmana qoyanları demirəm. Uşaqlarınıza qarşı niyə belə qəddarsınız axı? İçinizdəki hansı hiss, hansı düşüncə tərzi sizi məcbur edir ki, uşağınızı adam döymək üçün, dalaşmağı öyrənmək üçün, ağır qaldırmaq üçün, başqalarını qorxutmaq üçün idmana göndərirsiniz. Bunu uşağının uğur qazanması üçün edənləri yenə başa düşmək olar, amma mən adam tanıyıram uşağını dalaşmağı öyrənsin deyə, adam döyməyi bacarsın deyə, əzələlərini şişirtsin deyə, qorxaq olmasın deyə idmana göndərir. Uğur qazanmaq üçün idmanın o qədər növü var ki, kiminsə burnunu-başını əzməklə, qırmaqla, şikəst olmaqla deyil, ağlını, zəkanı, qabiliyyətini işlətməklə də uğur qazanmaq olur. Övladının hüquqlarına hörmət edən, onun gələcəyini düşünən valideyn övladını boksa və digər döyüş idman növlərinə göndərməz, ona keyfiyyətli təhsil verər, intellektual inkişafı üçün çalışar, əxlaqı, tərbiyəsi ilə məşğul olar.

Deyəsən mətləbdən uzaqlaşdım, bu tamam başqa yazının mövzusu idi. Nə isə...

Sonda isə bunu da qeyd edim ki, nazirin qərarı məcburi deyil, uşağını neçə yaşında birinci sinfə qeydiyyatdan keçirmək valideynin öz qərarından asılıdır, yəni əgər sən görürsən ki, 5 yaşındakı uşağın məktəbə hələ hazır deyil, onu məktəbə göndərməyə məcbur deyilsən. Məktəbi bağçaya çevirməməlisən.

Bizdə həmişə kütləvi psixoz olur – hamı elədi, mən qaldım... Cəmiyyətin gələcəyi təkcə nazirin qərarından deyil, həm də valideynlərin qərarından asılıdır burada. Cəmiyyətə isə kəmiyyət yox, keyfiyyət lazımdır.

# AVROPA İTTİFAQI VƏ ABŞ GÜRCÜSTANI RUSİYA İLƏ AVİAREYSLƏRİ BƏRPA ETMƏMƏYƏ ÇAĞIRIB



Avropa İttifaqı (Aİ) Gürcüstanı Rusiyanın aviasiya sektoruna qarşı sanksiyalara qoşulmağa çağırıb. Bu barədə bəyanatla Avropa İttifaqının Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borrelin mətbuat katibi Peter Stano mayın 11-də Brüsseldə keçirdiyi brifinq zamanı çıxış edib.

Peter Stano bildirib ki, Aİ ittifaqa üzvlüyə namizəd kimi Gürcüstanı Rusiyaya qarşı və bu ölkədən gələn uçuşların qadağan edilməsi ilə bağlı sanksiyalara əməl etməyə çağırır.

"Biz Rusiyadan gələn, Rusiyaya gedən birbaşa və bu ölkə üzərindən təşkil edilən digər uçuşları qəbul etməyə icazə vermirik", – Stano vurğulayıb.

ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel isə mayın 12-də keçirdiyi brifinqdə deyib ki, Rusiyadan Gürcüstana birbaşa uçuşların bərpa olunması Gürcüstan hava limanlarını sanksiyalar riski altında qoya bilər.

O bildirib ki, hazırda hər hansısa bir dövlətin Rusiya ilə əlaqələri inkişaf etdirməsinin zamanı deyil: "ABŞ da daxil olmaqla, bir çox Qərb ölkələri Rusiya təyyarələrinin öz hava məkanlarına daxil olmalarını qadağan edir. Əgər Rusiya və Gürcüstan arasında birbaşa uçuşlar davam edərsə, əlbəttə ki, biz Gürcüstan hava limanlarının idxal və ixrac nəzarətinə tabe olan təyyarələrə xidmət göstərdikləri üçün sanksiyalar riski altına düşmələrinə görə narahat olardıq. Bütün Qərb cəmiyyəti Rusiya rejimi ilə öz arasına məsafə qoyub və indi heç bir ölkənin Rusiya ilə əlaqələrini artırmağın vaxtı deyil. Gürcüstan xalqı ehtimal ki, birbaşa uçuşların bərpası və ya viza rejiminin dəyişdirilməsindənsə Prezident Putinin Rusiya qoşunlarını işğal altında saxladığı Gürcüstanın 20 faiz ərazisindən çıxarmasını görmək istəyərdi".

# MSK SƏDRİNİN SEÇİLMƏSİ İLƏ BAĞLI YENİ QANUN LAYİHƏSİ PARLAMENTƏ TƏQDİM EDİLİB



Gürcüstanın hakim "Gürcü Arzusu" partiyası ölkənin Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin seçilməsi qaydalarının dəyişdirilməsi ilə bağlı qanun layihəsini parlamentə təqdim edib.

Düzəlişə əsasən, MSK sədri və üzvlərini Prezident deyil, parlament sədri seçəcək.

Qanun layihəsinə əsasən, parlament spikeri müsabiqə elan edəcək, müsabiqə komissiyası formalaşdıracaq və namizədləri parlamentə təqdim edəcək. Prezidentin müsabiqə komissiyasında yalnız bir nümayəndəsi olacaq.

MSK üzvləri və sədri parlamentin minimum 76 deputatının dəstəyini alacağı təqdirdə 5 il müddətinə vəzifədə qalacaqlar.

Səsvermə zamanı bütün vəzifələr tutulmasa Prezident müsabiqə üçün yeni namizəd təqdim etməlidir və həmin namizəd parlamentdə səsə qoyulmalıdır.

Qeyd edək ki, qanun layihəsi təşəbbüsünü irəli sürən hakim "Gürcü Arzusu" partiyası eyni zamanda parlament çoxluğudur və müvafiq olaraq parlament sədri də hakim partiyanın üzvüdür.

Partiya üzvləri heç bir inkişaf etmiş ölkədə hazırda Gürcüstanda qüvvədə olan hüquqi təcrübənin olmadığını bildiriblər.

Mövcud qanunvericiliyə görə, Prezident müsabiqə elan edir, komissiyasını təşkil edir və namizədləri təsdiqlənmələri üçün parlamentə təqdim edir.

Müxalifət qanun layihəsini etirazla qarşılayıb.

## SƏFİR: TORPAQLARIMIZIN İŞĞALDAN AZAD OLUNMASI ZAMANI GÜRCÜSTAN AZƏRBAYCANLILARI 54 ŞƏHİD VERİB



Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpasında Gürcüstan azərbaycanlılarının böyük rolu olub. Torpaqlarımızın işğaldan azad olunması zamanı Gürcüstan azərbaycanlıları 54 şəhid verib. Təkcə 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın Gürcüstan əsilli 22 şəhidi olub. Bu sözləri Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Marneulidə "Ulu Öndər Heydər Əliyev və Gürcüstandakı azərbaycanlı icması" mövzusunda keçirilən görüşdə söyləyib.

Görüşdə Milli Məclisin deputatları, şəhid valideynləri, ailə üzvləri, azərbaycanlı icmasının nümayəndələri iştirak ediblər.

Diplomat Gürcüstan əsilli şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində fəal işlərin aparıldığını deyib.

"44 günlük Vətən müharibəsinin Azərbaycanın zəfəri ilə başa çatmasında dünya azərbaycanlılarının vəhdəti və birləşməsi böyük rol oynayıb. Biz bu dəstəyi Gürcüstan azərbaycanlılarından da hiss etdik. Verilən bu dəstəyə görə sizə və Gürcüstan dövlətinə təşəkkür edirəm", – deyə F.Quliyev bildirib.

Səfir qeyd edib ki, Azərbaycan müharibə dövründə Ermənistana silah-sursat daşınmaması üçün xarici dövlətlərə öz quru və hava məkanlarını bağlamaq çağırışları edirdi və Gürcüstan bu çağırışlara müsbət cavab verən ölkələrdən olub.

## STATİSTİKA İDARƏSİ: TÜRKİYƏ GÜRCÜSTANIN ƏN BÖYÜK TİCARƏT TƏRƏFDAŞIDIR



Gürcüstanın Milli Statistika İdarəsinin hesabatına əsasən, 2009-cu ildən Türkiyə Gürcüstanın ən böyük ticarət tərəfdaşıdır.

Sənədə görə, 2022-ci ildə Gürcüstan ilə Türkiyə arasında ticarət dövriyyəsi 2,8 milyard ABŞ dollarını keçib. Burada idxal 2,4 milyard, ixrac isə 435,4 milyon ABŞ dolları təşkil edib.

Ötən il Türkiyənin Gürcüstanla ümumi ticarət dövriyyəsindəki payı təxminən 14,6 % olub. 2023-cü ildə də vəziyyət dəyişməyib və birinci rübdə Türkiyə ilə ən yüksək ticarət dövriyyəsi 673,7 milyon ABŞ dolları olub. Türkiyənin bu il ümumi idxalda payı isə 14,1 % təşkil edib.

Birbaşa xarici investisiyalara gəldikdə isə, 2022-ci ilə qədər türk investorları Gürcüstana 106,5 milyon ABŞ dolları sərmayə qoyublar.

Statistika İdarəsinin məlumatına əsasən, 2022-ci ildə Türkiyədən Gürcüstana 925 561 ziyarətçi daxil olub, bu, Rusiyadan sonra ikinci ən yüksək göstəricidir.

Türkiyədən Gürcüstana pul köçürmələrinə gəldikdə isə, 2022-ci ildə Türkiyə 101 milyon ABŞ dolları ilə digər ölkələr arasında onuncu yerdə qərarlaşıb. Ötən il Gürcüstandan Türkiyəyə isə 72,9 milyon ABŞ dolları köçürülüb.

## TBİLİSİDƏ "HEYDƏR ƏLİYEV – GÜRCÜSTAN 100" KİTABININ TƏQDİMATI KEÇİRİLİB



Mayın 10-da Tbilisidə Azərbaycan və gürcü dillərində nəşr olunan "Heydər Əliyev – Gürcüstan 100" kitabının təqdimatı keçirilib.

Təqdimat mərasimində Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay, Gürcüstan parlamenti sədrinin müavinləri Qia Volski, Arçil Talakvadze, deputatlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tarixçi alim Ramiz Bəkirov tədbiri açdıqdan sonra Azərbaycanın və Gürcüstanın Dövlət himləri səsləndirilib.

Sonra səfir Faiq Quliyev çıxış edərək bildirib ki, Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş kitabda xronoloji faktlar, siyasətçilərin fikirləri xüsusi yer alıb. Əsərdə Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi onun qonşu dövlətlərlə, bu sırada Gürcüstanla münasibətləri diqqəti xüsusilə cəlb edir. Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Azərbaycan-Gürcüstan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu qeyd olunub.

Diplomat Heydər Əliyevin fəaliyyətinin ayrı-ayrı dövrləri barədə iştirakçılara məlumat verib, onun Gürcüstanla münasibətlərə xüsusi diqqət yetirdiyini vurğulayıb.

Parlament sədrinin müavini Arçil Talakvadze çıxışında deyib ki, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkələrimiz arasındakı münasibətlər yeni müstəvidə inkişaf edib və bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Türkiyənin səfiri Ali Kaan Orbay isə bildirib ki, bu gün bütün türk dünyası gözəl bir bayramı – fenomen şəxsiyyət, dünya şöhrətli Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Heydər Əliyevin adı əsrlər boyu xalqlarımızın yaddaşından silinməyəcək və daim ehtiramla xatırlanacaq. Heydər Əliyevin siyasi irsi gələcək nəsillər üçün əsl örnək olaraq qalacaq.

Gürcüstan parlamenti sədrinin digər müavini Qia Volski isə çıxışında dünyada Azərbaycana olan marağın artdığını, ölkəmizin mövqelərinin daha da möhkəmləndiyini vurğulayıb, bütün qazanılan uğurların əsasında Ulu Öndər Heydər Əliyevin siyasətinin dayandığını qeyd edib.

Sonra Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik Roin Metreveli, deputat Mamuka Xazaradze, Gürcüstanın Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İsak Novruzov, ictimai xadim Elşad Həsənov, sabiq qubernator Levan Mamaladze və başqaları çıxış edərək, Heydər Əliyevlə bağlı xatirələrini bölüşüblər. Çıxışlarda qeyd olunub ki, bu gün Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu ləyaqətlə və uğurla davam etdirməsi nəticəsində Azərbaycan daha da inkişaf edib, regionda sabitliyin bərqərar olunması üçün mühüm addımlar atılıb. Bir fikir xüsusi vurğulanıb ki, Prezident İlham Əliyev də Azərbaycan-Gürcüstan münasibətlərinə xüsusi diqqət yetirir. Məhz bunun nəticəsidir ki, bu gün ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Sonda kitabın müəllifi "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Gürcüstan üzrə müxbiri Şahismayıl Məmmədov iştirakçılara təşəkkürünü bildirib.

Tədbirin sonunda "Tarixin izi ilə" sənədli filmi nümayiş etdirilib.

*Mənbə: AZƏRTAC*

## YAS MƏCLİSİ, YOXSA YAĞLI AŞ MƏCLİSİ?



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Hər bir millətin və ya cəmiyyətin özünə xas adət və ənənəsi vardır. Bu adət-ənənə o cəmiyyətin yaşayış tərzinə müsbət və ya mənfi şəkildə öz təsirini göstərməkdədir. Bu adət-ənənə hər bir toplumda illərlə davam edərək nəsildən nəslə ötürülməkdədir.

Adət-ənənənin formalaşmasında iqlimin, coğrafi ərazinin, sosial həyatın, ailənin, cinsi fərqliliyin, sinfi fərqliliyin, idarəetmə formasının və ya inanc sisteminin təsiri böyükdür. Xüsusən də inanc-adət münasibətlərinin səviyyəsi digər ünsürlərin əlaqəsindən daha güclüdür. İstər ilahi dinlər olsun, istərsə də batil dinlər olsun – hər birində də adət və ənənədən təsirlənən bəzi uyğulamalara rast gəlməkdəyik. Həmçinin adət-ənənədə də dini uyğulamalar yer almaqdadır.

Bu gün bölgəmizdə bir çox adət-ənənələr vardır ki, insanlarımız mənimsəmiş və illərdir davam etdimişlər. Mən bu yazımda, əsasən, dini mərasimlər kimi bilinən yas mərasimlərimizdəki dini və adət-ənənə arasındakı bağlardan danışmaq istəyirəm. Əslində, bu mövzuda dəfələrlə yazmışam. Ancaq son zamanlarda gördüklərim məni bu mövzuya qayıtmağa vadar etdi.

Bu gün yas mərasimlərində qurulan tərtiblərin əksəriyyəti din adına qurulsa da bunların dinlə heç bir əlaqi yoxdur. Başlayaq ehsandan. Ehsan rəhmətə gedən insana savab qazandırmaq üçün varisləri tərəfindən edilən gözəl əməllərdir əslində. Biz isə ehsanı yalnız açılan dəbdəbəli süfrələr şəklində qəbul edirik. Halbuki həzrət Peyğəmbər bu mövzunu bizlərə başqa formada izah edir. Əbu Hüreyrədən (r.ə.) rəvayət edilən hədisi-şərifdə buyurulur: "İnsanoğlu öldüyü zaman bütün əməllərinin savabı da sona çatar. Bu üç şey bundan müstəsnadır: sədəqeyi-cariyə (gözəl əməl), istifadə edilən elm, özünə dua edən xeyirli övlad". Deməк ki, bizlər öldükdən sonra bizlərə savab qazandıracaq əsas əməlləri həzrət Peyğəmbər açıq bir şəkildə izah etmişdir. Bəli, imkansız və ehtiyac sahibi insanları da doydurmaq savab əməllərdəndir. Bu, vəfat edən insanın ehsanı olaraq acları doydurduğumuza görə də Allahın o insana savab verməsi umulan ehtimallar içərisindədir. Ancaq gəlin görək bizlər ehsan olsun deyə bu sadalananların hansını yerinə yetiririk? Bizim etdiklərimiz ancaq "gələnlər nə deyər"; "filankəs ehsanda filan yeməyi də vermişdir, bizim ondan nə əskiyimiz var"; "filankəsdə məclisdə filan sayda camaat gəlmişdi" düşüncələridir. Bu ehsan mövzusu da bir dəfə ilə yekunlaşmır. Üç mərasimi, qırx mərasimi, hələ bu üç ilə qırx arasında da hər cümə axşamları açılan süfrələr var. Daha sonra da əlli iki mərasimi qeyd olunur ki, bu mərasimlərin haradan gəldiyi bəlli deyil. Üstəlik mənşəyi bəlli olmayan bir yığıncağı da elə rahatlıqla islam adına çıxırıq ki, dinin bu yığıncaqlarla yuxarıdan, aşağıdan bir əlaqəsi belə yoxdur. Cəfər ibn Əbu Talib (r.a.) öldürülən zaman Peyğəmbər (s.ə.s.) buyurdu: "Cəfərin ailəsi üçün yemək hazırlayın və onlara aparın. Çünki başlarına onları məşğul edəcək bir müsibət gəlmişdir" (Əbu Davud, Cənaiz, 25-26). Buradan da görünür ki, cənazə evində yox, cənazə evinə yemək getməlidir. Çünki adamların acısı var, onlar yemək bişirəcək vəziyyətdə deyillər axı. Ancaq biz bu müsibəti heçə sayaraq hətta adamın süfrəsində filan şey niyə yox idi deyərək qınaq obyektinə çeviririk. Bundan əlavə, cənazə sahibinin maddi vəziyyətini belə nəzərə almadan hər kəslə eyni səviyyədə süfrə açmasını gözləyirik. Bunun səbəbini də yazdırdığımız 3-5 lari ilə göstəririk ki, filan qədər yas yığılıb. Nə isə, bu mövzu genişdir, uzun uzadı yazmaq olar. Ancaq diləyimiz odur ki, insanlarımız bu cür yığıncaqları dini məclis olaraq görürlərsə o zaman dinin qoyduğu qayda və qanunlarla əməl etsinlər. Yoxsa dini məclis deyib oxunan bir neçə ayə ilə dini qismini bitirdikdən sonra dil və qarın məclisi və ya yas məclisindən çox yağlı aş məclisinə çevirməsinlər.

Allahdan ölənlərə rəhmət, geridə qalanlara səbir və əzm diləyirəm...

# MÜVAFİQ TƏHSİLİ OLMAYAN BAĞÇA MÜƏLLİMLƏRİ PEDAQOQ STATUSU ALA BİLMƏYƏCƏKLƏR



Uşaq bağçalarının avtorizasiyası üçün hazırlıq işləri fəal şəkildə aparılır. Artıq ilkin qeydiyyat başa çatıb. Bu mərhələdə 2 027 uşaq bağçası qeydiyyatdan keçib, onlardan 1 704-ü dövlət, 323-ü isə özəldir. Bu, təhsil və elm naziri Giorgi Amilaxvarinin hələ komitə sədri olan zaman söhbət açdığı genişmiqyaslı islahatın ilk addımıdır.

Doğrudur, təhsil və elm naziri yeni fəaliyyətinə məktəb müəllimləri ilə fəal görüşlərlə başladı. Ancaq məktəbəqədər təhsil istiqamətində atılacaq addımlar və yeniliklər haqqında hələ heç nə deməyib. Parlament çıxışlarından birində G.Amilaxvari bağça müəllimlərinə pedaqoq statusunun verilməsini açıqlamışdı və bu istiqamətdə fəal işlər aparıldığını qeyd etmişdi:

"Bağça müəllimlərinə status vermək üçün müəyyən baza yaratmaq lazımdır. Bağça müəllimlərini hazırlayacaq bir neçə bakalavr proqramı artıq mövcuddur. Bundan əlavə, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzdə imtahan testlərinin hazırlanması işləri aparılır ki, onların standartı təyin edilsin. Bu, məktəb müəllimlərinin illərdir aparılan attestasiya prosesi kimi kifayət qədər uzun proses olacaq. Baza hazırlanıb, müəllimlərin ixtisasını müəyyən edəcək və onlara status verəcək imtahan testləri hazırlanır.

Bundan sonra müvafiq əməkhaqqı siyasəti də olacaq. Ancaq artıq 2023-cü ilin yanvarından dayə-müəllimlərin əməkhaqlarının 100 lari artırılması nəzərdə tutulub. Başa düşürəm, bu kifayət etmir, ancaq mühümdür".

İşlər hansı istiqamətdə aparılır və nazir G.Amilaxvarinin bağçalarla bağlı hansı planlarının olduğu hələ məlum deyil. "Etaloni.ge" ilə söhbəti zamanı Müəllimlər İttifaqının rəhbəri Maia Kobaxidze isə qeyd edib ki, uşaq bağçalarında vəziyyət xaotikdir:

"Uşaq bağçalarında, demək olar ki, vəziyyət xaotikdir. Qüvvədə olan qanunvericiliyə görə, məktəbəqədər təhsil müəssisələri bələdiyyələrə tabedir. Uşaq bağçalarının idarə edilməsi bələdiyyələrin yanaşmaları ilə həyata keçirilir. Bunun öz səbəbləri var. Baxmayaraq ki, "Erkən və məktəbəqədər təhsil haqqında" Gürcüstan qanunu 2016-cı ilin iyununda qüvvəyə minib, vahid standartla uşaq bağçaları əməkdaşlarının əmək, sosial-iqtisadi, əməkhaqqı siyasəti hələ də formalaşmayıb.

Bu, həyəcanlı vəziyyətdir və qanun tələblərinin icra edilməsinə nəzarət məqsədi ilə hakimiyyətdən təcili müdaxilə tələb edir. Eyni funksiyanı yerinə yetirmək üçün müxtəlif bələdiyyələrdə, müxtəlif bağçalarda işləyənlərin fərqli əməkhaqqı alması paradoksdur. Bu əməkhaqqı əksər hallarda yaşam minimumundan aşağıdır. Biz uşaq bağçalarında işləyənlər üçün vahid dövlət siyasətinin aparılması və əməkhaqqının minimum miqdarını təyin etməklə əlaqədar məsələ qaldırırıq. Təəssüf ki, nə Gürcüstan hökuməti, nə də Gürcüstan parlamenti tərəfindən bizim tələblər nəzərə alınmayıb. Qanuna əsasən, uşaq bağçalarında dayə-pedaqoq statusu tətbiq edilməli və bu statusa görə müəyyən edilmiş əməkhaqqının minimum miqdarı müəyyən edilməli idi. Neçə il ötüb və minimum əməkhaqqı hələ də təyin edilməyib".

Maia Kobaxidze qeyd edir ki, qəbul edilmiş qanun öz axarına buraxılıb, buna görə də uşaq bağçalarında vəziyyət dəyişmir:

"Tsalencixa bələdiyyəsində baş vermiş proses bunun nəticəsidir. Orada optimizasiya və maddi qənaət əsası ilə 36 nəfər müəllim köməkçisini işdən azad etdilər. Hakimiyyətdən heç kim Tsalencixa meriyasının qərarının qanuni olub-olmaması ilə maraqlanmayıb və araşdırmayıb. Niyə? Biz Tsalencixa bələdiyyəsi ilə razılaşmırdıq, qanunsuz olaraq işdən azad etmələri dayandırmaq üçün cəhdlərimiz və görüşlərimiz oldu. Amma bizim fikrimizi nəzərə almadılar. Ötən ilin oktyabrında bu faktla bağlı məhkəməyə şikayət vermişik. Məhkəmə prosesinin başlamasını gözləyirik. Bu istiqamətdə də sualımız var: Niyə məhkəmə təyin olunmayıb? Şikayətin verilməsindən artıq bir neçə ay keçib.

Öz səlahiyyətimiz çərçivəsində erkən və məktəbəqədər təhsilin qanunun tələblərinə uyğun yerinə yetirilməsinin monitorinqinə çalışırıq. Məsələn, bələdiyyələr normativ akt hazırlamalı idilər. Bu baxımdan da vəziyyət ciddidir. Məcburi normativ aktlar tələb etmişik və bəzi bələdiyyələr, ümumiyyətlə, cavab vermədilər. Gürcüstan İnzibati Məcəlləsinin tələblərindən istifadə etməyə məcburuq. Verilən sənədlərdə isə, demək olar ki, normativ aktların əksəriyyəti qeyri-peşəkarcasına, Əmək Məcəlləsinin tələblərinə zidd hazırlanıb. Gülməli faktlar da var. Məsələn, bələdiyyələrdən birində, dayə və loqopedin ixtisas tələblərində "xarici dil bilmək məcburidir" qeyd edilib.

Hakimiyyətin bu mühüm davamlı təhsilin ilk bəndinin – məktəbəqədər təhsilin inkişafı üçün nizam-intizam yaratmaq zamanı gəldi.

Giorgi Amilaxvarinin Təhsil və Elm Komitəsinin sədri olan zaman bağça müəllimləri üçün sertifikatlaşdırma sxeminin hazırlanması məsələsini elan etməsi faktını alqışlayırıq. Ümid edirik ki, bu bağça müəllimlərinə pedaqoq statusunun verilməsi prosesini sürətləndirəcək. Bəzi siyasətçilərin və müxtəlif qrupların uşaq bağçalarında yaranmış vəziyyətlə maraqlanması da çox sevindirici haldır. Biz tək olmayacağıq, bu da məqsədə nail olmağımızı tezləşdirəcək".

Dayə-müəllim sxeminin qəbul edilməsi və sertifikatlaşdırılması başlayacağı halda imtahanlar təyin olunacaq. Amma həm də məktəbəqədər təhsil müəssisələrində işləyən işçilərin müvafiq təhsilinin olmamasından danışırlar. Bu, məktəbəqədər təhsil müəssisələrində işləyən kadrların uyğun diplomu yoxdursa imtahana buraxılmayacaq deməkdir, yoxsa yox? – Maia Kobaxidze bu təhlükənin olduğunu bildirib:

"Bağça əməkdaşları başa düşmürlər ki, sistematik işləmək lazımdır. Əvvəl pedaqoq statusu almalıdırlar, sertifikatlaşdırmadan keçməlidirlər, sonra isə çatışmazlıqları düzəltmək üçün işləməyə başlamlıdırlar. Ancaq, qorxuram ki, sertifikatlaşdırma başlayan kimi dayələrin bir hissəsinin səviyyəsi aşağı düşsün. Çünki bəzisinin ali təhsili yoxdur, amma xüsusi təhsili var və müvafiq olaraq o, pedaqoq statusu almaq üçün sertifikatlaşdırmada iştirak edə bilməz".

# İYUNUN 1-NƏ QƏDƏR MÜƏLLİMLƏR PORTFOLİOLARINI TAMAMLAMALIDIRLAR




Müəllimlərin böyük hissəsinin tələbinə baxmayaraq portfolio ləğv edilmədi və statusunu yüksəltmək istəyən müəllimlərin portfoliolarını tamamlamaq üçün 1 iyuna qədər vaxtları var.

Nazirin qərarı ilə portfolio sadələşdirilib. Pedaqoqun peşə qovluğuna hər istiqamətdə yalnız bir kompetensiyanı təsdiq edən sənəd yerləşdirmək hüququ var.

Statusunu yüksəltmək istəyi olan müəllimlərin problemi yarana bilər, çünki "eschool"a fərqli ölçüdə istənilən sənədi yükləyə bilməyəcəklər. Portfolioya sənədləri yerləşdirən zaman faylın tipinə və ölçüsünə diqqət yetirmək lazım olacaq.

Portfolioya sənəd yükləyərkən müəllimlər aşağıdakıları nəzərə almalıdırlar:

- Yüklənəcək bir faylın maksimum ölçüsü 20 meqabaytdan artıq olmamalıdır;
- Sistemə yüklənəcək faylın tipi sadalananlardan birinə uyğun olmalıdır: doc, docx, xls, xlsx, pdf, jpg, jpeg, png, ppt, pptx.

Əgər bu qeydləri nəzərə almasanız sizin işiniz peşə qovluğuna yerləşdirilməyəcək.

# MÜƏLLİMLƏR SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN SAYININ ÇOXLUĞUNDAN NARAZIDIRLAR



Müəllimlər təhsil və elm nazirindən əsaslı dəyişikliklər tələb edirlər. Mühüm məsələlərdən biri ictimai məktəblərdə siniflərdə şagirdlərin sayının çoxluğu ilə bağlıdır.

Müəllimlər yekdilliklə bildiriblər ki, siniflərdə şagirdlərin sayının çoxluğu onlar üçün böyük problemdir. Çünki belə olduğu halda hər şagirdə bərabər diqqət ayırmaq və onların fərdi ehtiyaclarının qayğısına qalmaq çətinləşir.

Sosial şəbəkələrdə aparılan müzakirələrdə pedaqoqların əksəriyyəti qeyd edir ki, siniflərdə 20-dən çox şagird olmamalıdır.

Milli tədris planına əsasən, ictimai məktəblərdə bir sinifdə şagirdlərin maksimum sayı 25 nəfər müəyyən edilib, ancaq istisna hallara da yol vermək olar. Əgər məktəb sinifdə 25-dən artıq şagird olmasını istəyirsə ona nazirliklə yazılı razılaşma əsasında bu hüquq verilir. Ancaq rəsmi sənədlərdə açıqlama verilib ki, belə hallarda sinifdə şagirdlərin maksimum sayı 29-dan çox olmamalıdır.

Qaydaya görə, sinifdə şagirdlərin minimum sayı isə 15 olmalıdır. Paralel siniflərə yalnız hər sinifdə ən azı 15 uşaq olduğu halda icazə verilir. Qeyd etmək lazımdır ki, burada da istisna hallar var və məktəb nazirliklə razılıq əsasında 15-dən az şagirdi olan siniflər də təşkil edə bilər.

Şagird sayı ilə əlaqədar istisna hallara yalnız və yalnız nazirliyin razılığı ilə yol verilir. Məktəbin müstəqil olaraq sinfə 15-dən az və ya 25-dən artıq şagird qəbul etmək hüququ yoxdur.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# MƏN İNSANAM!



Bu günə qədər yazdığım bütün yazılarımda qeyd etmişəm ki, insanların istəyib edə bilməyəcəyi heç nə yoxdur. Biz insanlar doğrudan da beləyik – istəyib, çalışıb hər şeyi əldə edə bilərik. Ancaq bəzən həyat nə qədər çox istəsək də, çalışsaq da qarşımıza daha böyük manelər çıxardır. Deyəcəm, motivasiyadan düşməməliyik, əksinə, daha çox ruhlanmalıyıq, amma bəzən həqiqətən də istəyib əldə edə bilmədiyimizdə daha çox yoruluruq və ümidsizliyə qapılırıq. Bunu yaşamış biri olaraq deyirəm.

Məzun olmağıma son bir həftə qalıb. Məktəb həyatım elə də ürəyimcə olmayıb, birinci sinfə 5 yaşımda getmişəm. Sinif yoldaşlarımdan daha kiçik idim. Məktəb mənə oyun parkı kimi gəlirdi, heç nəyə ciddi yanaşmırdım, dərslərin lazımsız və cansıxıcı olduğunu düşünürdüm. Sinif yoldaşlarımla və müəllimlərimlə ünsiyyətdə olmurdum. Nə yalan deyim, müəllimlərim mənim balaca olduğumu görüb o qədər də üzərimə gəlmirdilər. Ancaq bu, nə belə qaldı, nə də ki, bu şəkildə davam etdi.

Məktəbin nə olduğunu 1-ci sinfin sonunda anladım, sinifdəki bütün uşaqlara müəlliməm yaxşı oxuduqları üçün sertifkart verdi, ancaq mən qazana bilməmişdim. Doğrusunu deyim, müəllimin yerinə mən də olsaydım verməzdim. Çünki bu bir il ərzində yalnız rəqəmləri və bir neçə hərfi güclə öyrənmişdim. Ancaq daha sonralar mən böyüdükcə müəllimlərimin mənə qarşı olan davranışları da dəyişməyə başladı. Tapşırığı yazmadığımda uzağı tənbəlsən deyən müəllimlərim artıq mənə daha ağır sözlər deməyə başlamışdılar. Ən əsası da, bəlkə böyüdüyümdən idi, bu sözləri eşitmək heç də xoşuma gəlmirdi.

Xatırlayıram, müəllimim mətn vermişdi, kim bunu daha tez oxusa onun da əlaçılar arasında şəkli olacaq demişdi. Bir gün səhərdən axşamacan o mətni oxumuşdum və bacarmışdım. Hətta sinifdəki ən yaxşı oxuyanlardan belə sürətli və tez oxumuşdum. O gün mənə deyilən xoş sözlərdən sonra məktəbin o qədər də pis olmadığını anladım və yaxşı oxuyacağıma özümə söz verdim. Müəllimim əlaçılar arasında mənim adımı çəkəndə o qədər sevinmişdim ki, o görüntü, o səs hələ də yaddaşımdan silinməyib. İlk dəfə nəyisə çox istəyərək çalışıb öz zəhmətimlə əldə etmişdim.

Orta məktəbdə də yenə bu cür hadisələrlə qarşılaşdım, yaxşı oxuyurdum əslində, ancaq müəllimlərimin dediyinə görə, çox da yaxşı deyildim. Rus dili dərsində hər semestr aşağı qiymət alırdım. Qiymətlərimi düzəltmək üçün düz üç il çalışdım və bacardım. Düzü, istədiyimi əldə edənə qədər çox yoruldum, bəzən ümidsizliyə qapıldığım da oldu, ancaq heç bir zaman istədiyimdən əl çəkmədim.

Artıq məzun oluram və məktəbi qızıl medalla bitirirəm. Bu, mənim üçün çox böyük bir uğur və xoşbəxtlikdir. Bir insan olaraq deyirəm, bizlərin istəyib və çalışaraq əldə edə bilməyəcəyimiz heç nə yoxdur bu dünyada. Biz insanıq, demirəm həmişə mükəmməl olmalıyıq, yorulmamalıyıq, ancaq istədiyimizdən də heç bir zaman əl çəkməməliyik.

Bəzən boşboğaz insanların ucbatından istədiklərimizdən əl çəkmək məcburiyyətində qala bilərik. Nə qədər çox istəsək də, bir-iki insanın dediyi mənfi sözlə etmək istədiyimizdən imtina edirik, yəni bu dünyada insana insandan başqa heç kəs pislik edə bilməz.

Mən insanam, istədiyimi çalışıb əldə edə bilərəm. Mən insanam, ağlaya bilərəm, gülə bilərəm. Mən insanam, yorula bilərəm, ümidsizliyə qapıla bilərəm...

Mən insanam, hər şeyi bacara bilərəm!

***Alina Fətullayeva***
*Qardabani 3 nömrəli ictimai məktəbin 12-ci sinif şagirdi*

# MEDİANIN GÜNDƏLİK HƏYATIMIZDAKI ROLU



Elm və texnika inkişaf etdikcə cəmiyyət də inkişaf edir, cəmiyyət inkişaf etdikdə insanın dünyagörüşü, dünyaya baxış tərzi də dəyişir. Bu qədər inkişaf qarşısında böyük şeylər kiçilir, uzun zaman qısalır. Ucu-bucağı olmayan dünya o qədər kiçilir ki, ovuclarımızın içinə sığır, qısa sözlər böyük mənalar kəsb edir. Belə sözlərdən biri də məhz “media” sözüdür.

Media sözü cəmi beş hərfdən ibarət olmasına baxmayaraq özündə çox şeylər birləşdirir: televiziya, radio, qəzet, kitab, musiqi, rəqs, əyləncə, kədər, qalmaqal, qalibiyyət, məğlubiyyət, ünsiyyət və sairə. Və bütün bunların, təbii ki, həyatımızda böyük rolu var. Lazım olan məlumatların əldə edilməsi, paylaşılması, dost-tanışla ünsiyyətin qurulması, hətta bu yazının paylaşılması belə medianın həyatımızdakı rolu ilə baş tutub. İnsan sosial olmağın ən cəld, ən asan yolunu mediada tapıb və beləcə sosial media həyatımızda fotosintez prosesində rolu böyük olan günəş işığı, karbon qazı, mineral maddələr kimi böyük rol oynayıb.

Qaldı ki, medianın mənfi və müsbət cəhətlərini təsnif etməyə, buna ehtiyac belə yoxdur. Çünki bu günə qədər icad olunmuş hər şey insanın həyatını asanlaşdırmaq və zamana qənaət etmək üçün nəzərdə tutulmuşdur. Media da bundan uzaq deyil. Ondan düzgün istifadə etməmək insanın məhz öz günahıdır. Ağıllı insan həmişə həyatda özünə fayda verən şeylərdən bəhrələnir. Mediadan da düzgün istifadə etdikdə onun ağasına çevrilir. Amma məncə mediadan düzgün istifadə etməyənlər onun köləsi olurlar. Medianın ağaları medianın kölələrindən maddi cəhətdən yox, puldan daha dəyərli olan zamanla fərqlənirlər. Əlbəttə, vaxtdan səmərəli və düzgün istifadə edənlər həyatda nəyə isə nail olacaqlar. Boşa vaxt itirənlər isə ağıllı insanların nailiyyətlərini müəyyən bir vaxt keçəndən sonra, gec də olsa, yenə sosial mediadan öyrənəcəklər.

Mediadan nə aldığımız qədər mediaya nə qatdığımız da önəmlidir. Əgər biz mediadan fayda görürüksə, deməli, biz də ona faydalı nələrsə qatmalıyıq ki, başqaları da faydalansın. Bu isə o mənaya gəlir ki, medianın həyatımızda oynadığı rol qədər bizim də onda oynadığımız rol böyükdür. Məşhur bir söz var, deyir: “Dünya özü bir filmdir, insanlar isə bu filmin aktyor və aktrisalarıdır”. Əgər bu cümləyə media sözü əlavə olunsa, onda təxminən belə olardı: “Media özü film kimi bir dünyadır, biz insanlar isə aktyor və aktrisalarıq”. Qaldı ki, müsbət və ya mənfi obraz canlandırmağa, o öz əlimizdədir. Necə ki, ağa və kölə olmaq.

***Çiyalə Osmanova***
*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# YETİŞƏ BİLMƏDİYİMİZ SABAHLAR



Uşaq ikən böyüməyə can atarıq, nə vaxt məktəb bitəcək, nə vaxt biz də böyüyəcəyik deyə tələsərik. 18 yaş müstəqil həyatın başladığı, yeni həyata atılan ilk addım deməkdir – həyatımızda nə edəcəyimizə qərar verməkdə sərbəst olduğumuzu hiss etdiyimiz an, həyatımızla bağlı qərarlar verib, qarşımıza məqsədlər qoymalı olduğumuz vaxt...

Özümüzə həyatımızda nəyi dəyişdirmək, ətrafını dəyişdirmək, kimlərdən uzaqlaşmaq və ya kimlərlə nə üçün əlaqədə olduğumuz barədə suallar verməliyik. Ən əsas sual isə həyat və ondan nə gözlədiyimizlə bağlı olmalıdır.

Birdən-birə insana gələn o ilham ki var: "Hə, qurtardı, sabahdan atıram tənbəlliyin daşını, başlayıram idmana", "Bu gün də yeyim, mütləq bazar ertəsindən otururam dietaya", "Sabah filan işimi həll edəcəm", "Bu gün də telefona doyunca baxım, sabah ciddi şəkildə dərslərlə məşğul olacam"... Hər gün özümüzə bu cür sözlər veririk, amma o "sabah" heç gəlib çatmır. Bir də baxırıq, vaxtında ediləsi olan qalıb bir yanda, iş işdən keçib, artıq gecdir.

Sabahdan etibarən yeni bir həyata başlayacağam deyə özümüzə neçə dəfə demişik. Bunun üçün ilk öncə səbir və inam lazımdır. Ancaq bəzi insanlar üçün səbir və inam bir neçə gün davam edir və sonradan yenidən məyusluq, peşmançılıq, özünə inamsızlıq başlayır. Bir sözlə, həvəs ölür. Düşüncələr mənfi hala keçməyə meyillidirlər. Bunun bir çox səbəbləri var, birincisi "Onsuz da bu günə kimi belə yaşamışam, indən belə də yaşayaram" düşüncəsidir. Konfort zonasından çıxmaq istəmirik. Hər şeyi düşünən beyin hiyləgərlik edib tənbəlliyin daha rahat olduğunu, insanın özünə niyə əziyyət verməli olduğunu deyir sanki.

Həyat bir bataqlıq deyil, davamlı hərəkətdədir. Bir yerdə durmaq, hərəkət etməmək yaşamamaq deməkdir. İnkişaf çətinliklərdən, manelərdən, köhnə münasibətlərə qarşı mübarizə aparmaq yolundan keçir. Bu normaldır. Nail olmaq üçün dözmək, səbir etmək isə mütləqdir. Həyatda əldə etdiyimiz hər bir fikir, bilik, bacarıq bizim üçün yenilikdir. Onu əldə etmək üçün fikrimiz təmiz, əməlimiz yaxşı olmalıdır. Dəyişərkən yaxşılığa doğru dəyişmək lazımdır. Doğrudur, gələcəkdə başımıza gələcəklər haqqında hər şeyi bilməyimiz mümkün deyil. Amma ətrafımızı, dostlarımızı seçmək bizim əlimizdədir.

İnsanlar doğum günündə bir-birinə sağlamlıq, xoşbəxtlik arzulayırlar. Amma bizdə düzgün həyat tərzi, düşüncə və əməl olmazsa, nə bizə arzulananlar bizim ola bilər, nə də kiməsə arzuladığımız reallaşar. Bunlar sözlərdən başqa bir şey olmaz. Ona görə də dəyişin, bu gündən, bu andan yaxşılığa doğru dəyişin, düşüncələrinizi dəyişin. Sağlam həyat tərzi və düzgün düşüncə olarsa həm sağlamlıq, həm də xoşbəxtlik olar. Çalışın düşüncələrinizi təmiz saxlayın, çünki insanı bataqlıqdan çıxarmaq olar, amma bataqlığı insandan çıxarmaq qeyri-mümkündür.

***Aytən Fətullayeva***
*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# SAÇI UZUN OĞLANLAR, ƏLİ TƏSBEHLİ QIZLAR



Bizim gələcəyimiz belə haraya gedir? Fərqindəsinizmi, 50 yaşındakı xala 25 yaşındakı oğlana ərə gedir. Qadınlar içki içir, siqaret çəkir; kişilər çayxanada nə əskikdi onun mübahisəsini aparır. Uşaqlar son model telefon, maşın istəyir. Oğlanlarımız qız kimi saçlarını uzadıb, qulaqlarını dəldirib sırğa taxırlar, dırnaqlarına manikur-pedikur edirlər və qızlardan seçilmirlər...

Avtobusda gedərkən belə bir hadisəyə şahid oldum. Avtobusu saxlamaq üçün bir gənc əl edirdi. Sürücü buna fikir vermədi. İrəlidə oturan bir nənə sürücüyə dedi:

– Saxla, saxla! Qız minmək istəyirdi.

Elə ki oğlan avtobusa mindi bizim qız olduğunu düşündüyümüz şəxsin oğlan olduğunu gördük. Saçlarını o qədər uzatmışdı ki, önünü güclə görürdü. Hələ saçları çox qızların saçından parlaq və baxımlı görünürdü. Oğlan başını yuxarı qaldırdıqda nənənin yüksəkdən dediyi sözü hələ də xatırlayanda gülürəm. Nənə əlini ağzına tutub belə dedi: "Bıy, bu ki oğlan imiş". Bu cümləni eşidəndə avtobusda olan hər kəs güldü. Oğlanın özü də güldü, onun yerində mən olsaydım utanıb başımı yerdən qaldırmazdım.

Axı niyə özünüzü gülünc vəziyyətə salırsınız. Saçlarınızı uzadıb, qaşlarını aldıqda, saçlarınıza boya qoyduqda qızlardan nə fərqiniz olur. Hələ bir oğlan "Ehh, ay nənə, sən haradan biləsən bu modadı, daha hamı belə edir" dedi. Yəni oğlanların özlərini qızlara oxşatma modası yaranıb. Müasirlik dedikləri budurmu?

Əvvəllər qadınların çarşab geyinməsini tələb edən babaların nəvə-nəticələri bu gün qız kimi geyinirlər.

Bir də var "auye qızlar", hansılar ki əllərində təsbeh qoca babalarımız kimi "zakon" belə, "palajeniya" elə deyib ortalıqda kişi kimi gəzirlər.

İndi biz kimə qız, kimə oğlan deyək? Cəmiyyətimizin, gələcəyimizin asılı olduğu gənc nəsil bunlardırmı?

Bəzən küçədə evin qarşısında oturub, yoldan keçənlərin qeybətini edən nənələrin haqlı olduğunu düşünürəm. Bizim gələcəyimiz belə haraya gedir? Hamı moda adlanan uçurumun kənarında dayanıb özünü sıra ilə aşağı atmağı gözləyir. Bəlkə qızların əlindəki təsbehləri oğlanlara geri qaytarmaq və oğlanların da modanı qızlara buraxmaq vaxtıdır. Nənəm demiş, qızsınız, qız kimi davranın; babam demiş, adam kişi olar.

***Validə Fətullayeva***
*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# İNSAN OLMAQ ÜÇÜN TƏKCƏ BİLİK, SAVAD BƏS ELƏMİR



Məktəb bəziləri üçün özünü göstərmək, bəziləri üçün ünsiyyət qurmaq, bəziləri üçün isə təhsil, bilik yeridir.

Bir çoxları düşünürlər ki, hər kəs məktəb oxuyub qurtarmalı və bilikli, savadlı olmalıdır. Ancaq mən belə düşünmürəm. Məncə, bu, belə olmamalıdır.

Məktəb bizə hər şeyi öyrədir və mən 9 illik məktəb həyatımda bunu anladım ki, sadəcə oxumaq deyil, bilik sahibi olmaq deyil, həm də tərbiyəli, mədəni olmaq məcburiyyətindəyik.

Məktəbin verdiyi tərbiyəyə əsaslanaraq, məncə, bir insanda mədənilik, ağıl və şirin dillilik varsa, o insanın bacara bilməyəcəyi şey yoxdur. Necə ki, el arasında deyirlər: şirin dil ilanı yuvasından çıxarar. Çox təəssüflər olsun ki, insanlar yalnız bilik sahibi olmaq üçün çalışırlar.

Məktəbdə isə bizə belə öyrətmirlər və belə öyrətməmələrinə baxmayaraq, gözümlə gördüyüm, şahidi olduğum bir neçə problemi sizə demək istəyirəm, hansılar ki bizi həyatda çox pis yollara sürükləyirlər.

Mənim oxuduğum məktəbdə oğlanlar və qızlar bir-birlərinə hörmətlə yanaşmırlar. Hətta, bəzən elə olur ki, oğlan qıza hörmət etmək yerinə, qız oğlana hörmət edir.

Bundan başqa, məktəblərin bəzilərində hələ də forma yoxdur. Buna görə də geyimlərini bilməyənlər çoxdur. Daha sonra, bufetdə hamı qarşısındakına hörmət və səbir etmək yerinə bir-birinə nalayiq sözlər deyib, itələyirlər ki, tez yeməyini alıb çıxsın, sanki ac qalacaqlar.

Gələk məktəbdə dərs müddətinin az olması məsələsinə. Məncə, bu ən böyük problemlərdəndir. Niyə? Çünki heç bir müəllim dərs müddətinin az olmasına görə dərsi tam başa sala bilmir və bunun nəticəsində savadsızlıq baş alıb gedir.

Sizcə, bu sadaladıqlarım böyük problemlər deyilmi? Bu problemlərin heç birinə müdaxilə olunmur. Bu problemlərə görə narahat olan təkcə mən deyiləm və bu problemlər həllini tapsa mənim kimi digərləri də şad olarlar.

Kaş hər kəs qarşısındakına hörmət etməyi özünə borc bilə. O zaman dünya daha da gözəl olar.

***Elif Əliyeva***
*Kosalı ictimai məktəbinin 9-cu sinif şagirdi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

**Altıncı boy.** Bu boyun süjet mehvəri düzxətli və çoxlu kəsmə ilə, istərsə də yan ötmələrlə xarakterizə olunur. Hadisənin inkişafının əsas motivi Koroğlunun sonsuz olması, övladının olmamasıdır ki, bunun da həlli zamanı bir çox problemlər üzə çıxır, bunlar da müxtəlif epizodlar şəklində bu təhlil olunan dastanda özünü göstərir.

Girişdə, yeni yazın yetişməsi ilə Çənlibel gülə, nərgizə boyananda Nigar xanımı dərdi bürüdü, onun gözlərindən damcı-damcı yaş gilələnib "lalə yanaqlarından" aşağı axdı, bunun da səbəbi, Nigar xanımın özünün buyurduğu kimi, "hər quş balasıynan gəzər", amma onun heç bir ağlayanı yoxdur. Buna görə də "nə dərd olsa onu tapır" *(Bax: "Koroğlu", səh. 173).* Koroğlunun özü də bu səbəbdən bir növ narahat oldu və onun ağlamağını heç kəs görməsin deyə gizlindən göz yaşı tökürdü. Aşıq Cünun onları sakitləşdirir, onlara layiq oğulluq tapmağa söz verir və onu axtarmağa yollanır. Neçə-neçə oymaqları, kəndləri, şəhərləri dolandı və nəhayət, gəlib Təkə-Türkmanda toyun olduğu bir obaya çıxdı. Aşıq da şənliyə qatıldı, Koroğlunun şöhrətləndirdi. Nəhayət, qeyri-ixtiyari ona "qüdrətin qələmi ilə çəkilmiş" bir oğlanı təqdim edirlər və onu tərif etməyi xahiş edirlər. Cünun onun boy-buxununDan vəcdə gəldi, lakin onu tərif etməyə başlayana kimi gənc oğlanla deyişdi, əmin olanda ki, o qüsursuzdur, axtardığını tapıb, sevincək Çənlibelə tərəf yola düşdü və orada olanları özünün tapdığı xəzinə barəsində tanış etdi.

Burada artıq süjetin inkişafının ikinci mərhələsi başlayır: Koroğlunun özü oğulluğunu görməyə və gətirməyə gedir. Yolda o, çobana rast gəlir. Çörəkdən-zaddan nəyin var deyir. Çoban da geri çəkilmir, nəyi var onu qonaq edir. Sonra Koroğlu çobandan xahiş edir ki, paltarlarını müvəqqəti dəyişsinlər, bunu da onunla izah edir ki, mal-davar almaq niyyətindədir və onun paltarı, yaraq-yasağı heç kimi qorxutmasın, alver baş tutsun. Qısası, paltarlarını dəyişdilər və sürüləri yoxlamaq üçün çölə gedən ata-oğula çodar olaraq özünü təqdim etdi. Onlar ata qəssab Alı və onun oğlu Eyvaz idi.

Alver başladı və bu alver zamanı Koroğlunun əliaçıqlığı Eyvazı düşündürdü ki, onlarla çodar deyil, hansısa igid alver edir. İstər elə, istər belə olsun, Koroğlu bacara bilir və nə üçün gəldiyini Eyvaza izah edir, tərkinə alır və atı çapır. Lakin ata bələnin başından qışqıra-qışqıra gəlir. Belə bir igid vermərəm deyir. Koroğlu sakit və ağıllı mühakimə ilə atanı əmin edir ki, onun oğlunu heç bir təhlükə gözləmir, əksinə, ona böyük hörmət edəcəklər və adlı-sanlı igid olacaq, dəlilərə sərdar olacaq. Ata hər şeyi ölçüb-biçəndən sonra onunla razılaşır.

Lakin qarşıda Koroğlunu və Eyvazı böyük fəlakət gözləyir. Belə ki, hələ bu vaxta kimi bir adamın onun əlindən sağ qurtarmadığı ünlü pəhləvan Ərəb Reyhan bu xəbəri eşidəndə öz qoşunu ilə Koroğlunun dalınca düşdü, keçidi kəsdi. Baxdı ki, əgər keçidə düşsə, çox darısqallıqdı, əl-qol açmaq olmayacaq. Atı vurub sıldırımın kənarına gəldi. Gördü yox, buradan da keçmək mümkün deyil. Bura bir uçurumdur ki, dibi görünmür. Eni də az olsa on beş-iyirmi addım var. Koroğlu qaldı mat-məətəl, nə eləsin. Qəmə batmış Koroğlu bir də baxdı ki, Çənlibel tərəfdən bir dəstə durna gəlir. Koroğlu fikirləşdi: "Əgər bu qatar durnanın başçısını vura bildin, onda Qırat da bu uçurumdan tullana biləcək, yox, əgər vura bilmədin, onda gör başına nə çara taparsan". Doğrudan da ox ilə durnanı yerə saldırdı və Eyvazı tərkinə aldı, yenə köhnə qayda olaraq atı cövlana gətirdi və doğrudan da bu uçurumu keçdi, Çənlibelə doğru yola düşdü. Ərəb Reyhan onun arxasınca düşdü. Koroğlu dönüb arxasınca gələn Ərəb Reyhanı döyüşə çağırdı. Böyük davadan sonra Koroğlu ona üstün gəldi, onu başına qaldıraraq yerə vurdu. Sinəsinə çöküb xəncəri boğazına dayadı. Ərəb Reyhan bir dəfə də olsun nə dindi, nə də aman istədi. Onun igidliyi Koroğlunun xoşuna gəldi və onu bağışladı. Özü isə Eyvazla birlikdə Çənlibelə yollandı ki, burada da ümum şənlik və kef məclisi təşkil edildi. Nigar xanım Eyvazın gözlərindən öpdü və köynəyinin yaxasından keçirib özünə oğul elədi *(Bax: "Koroğlu", səh. 198).*

Bu dastanda övladsızlıq problemi önə çəkilib, o da izah olunur ki, Koroğlu niyə övladsızdır. Bu da bir növ onu qəmə bürüyüb, lakin Nigar xanım daha çox üzülür və öz dərdlərini bizə incəliklə anladır.

Yenə Cünun çarə bulucu olaraq ortaya çıxır və o da aşıqlıq sənəti sayəsində, eləcə də aşıq "dəcəlliyi" ilə məqsədə nail olur. Bu boyda da Koroğluya emosiyalılığından daha çox dərrakəlik və təmkinlilik yaraşır ki, bu da hələ çobanla münasibəti zamanı, sonra Eyvazı dəyərləndirən zamanı özünü büruzə verir. Elə burada Koroğlu xoş niyyətli və səxavətli insan olaraq təqdim olunur. Belə ki, Eyvazın atasına on qat artıqlaması ilə verir, öz aldığı sürünün yarısını çobana bağışlayır. Halal qonaqpərvərliyinə və qarnını doyurduğuna görə o biri yarısını Eyvazın atasına verir. Elə burada qəssab Alının oğlunu övladlığı olduğu zaman gələcəyi daha parlaq olacağına əmin edəndə məntiqi mühakiməsi ilə fərqlənir. Həmçinin burada Koroğlu igidliyə, Qafqaz etik inancına qarşı böyük hörmət-izzət aşkarlayır: igidə igidliyə dəyər verməsi və onu etiraf etməsi yaraşır, ona xəyanət etmir və ölümü cəsurcasına qarşılayan, qorxmaz türkmən bəyə – Ərəb Reyhana onun sayıq düşməni olmasına baxmayaraq həyat bəxş edir.

Bu boyda həmçinin Qafqaz xalqları arasında yayılan bir ənənə – yad gəncin, əgər o oğulluğa götürmək, övlad kimi qəbul etmək üçün layiqlidirsə, bunun da müəyyən qayda və məqamla baş verməsi diqqəti cəlb edir. Beləliklə, bir baxışla, əhəmiyyətsiz cizgilər bir növ diqqətə layiqdir. Çünki onlar aşkarcasına eposun mənşəyinin kökləri barədə bizə işarə edir.

**Yeddinci boy.** Bu kifayət qədər geniş dastanın süjet mehvərində çoxlu kəsmə və yan ötmələri təklif edir ki, bu da nəqlin monotonluluğunu canlandırır və bir növ enerji ilə onu zənginləşdirir.

Süjetin əsas motivinin qaldırılmasına qədər, bir qayda olaraq, qısa bir girişlə açılır: Koroğlu və Dəmirçioğlu öz xanımları ilə birlikdə dəlilərin məşqinə baxırdılar. Qəflətən onların diqqətini Ərəbatın üstündə, misri qılınc dəstində gələn, oxu yayından qopub gələn və başındakı çalmaya durna telinin sancıldığı Eyvaz diqqəti cəlb edir. Telli xanım Nigar xanıma müraciət etdi: Nigar xanım, görürsənmi, durna teli Eyvaza necə yaraşır. Gör, o kişilərə elə yaraşanda bizə necə yaraşar. Gəl, uşaqları göndərək gedib bizə durna teli gətirsinlər. Uzun çəkən mühakimədən sonra belə qərara gəldilər ki, durna ovuna üç igidi: Eyvazı, Dəmirçioğlunu və Bəlli Əhmədi göndərsinlər. Onlar da Bağdad ətrafında çoxlu durna vurdular və yeyib içəndən sonra hərəsi bir tərəfdə yuxuya getdi.

Onlara göz qoyan qoruqçu Bağdad paşası Aslan paşaya bütün bunlar barədə məlumat verdi. Bu sonuncu çoxsaylı qoşunla yatanların üstünü aldırdı. Həm də onların otlamağa buraxdığı atları basqın edənlər kəmənd atıb tutmuşdular. Nə edəydilər? Üç nəfər dəli mətanətlə vuruşurdu. Nə qədər qırırdılarsa, qoşunun dalı kəsilmirdi. Axırda onları bir-birlərindən ayrı salıb təklədilər, üçünü də tutub atları ilə birlikdə şəhərə gətirdilər.

Gözlənilmədən arenaya Koroğlu ilə illər boyu dostluq edən, Bağdada mallarını satmağa gələn bəzirgan Xoca Əziz çıxır. O, əsirləri tanıdı və ələm onun gözündə qaraldı. Bilmirdi nə etsin. Koroğluya necə xəbər çatdırsın? Hoyuna yenə də Qırat yetir. Belə ki, o, heç kimi yaxın buraxmadı, yaxın qoymadı. Hasan Paşa onu arıq-uruq hesab edir və qoruqçuya bağışlayır. Xoca Əziz yaramaz atın hədiyyə edilməsindən yaman pərt olan qoruqçudan az pul verərək atı aldı. Atı aparıb qabağına arpa, saman tökdü, qır-saqqızı əridib bezin üstünə sürtüb möhkəm-möhkəm sarıdı Qıratın belinə. Özü də çıxıb oturdu üstündə. Atın başını boşladı, at götürüldü, nə götürüldü. Və Koroğlunun qarşısına yetirdi özünü. Qərəz, onu bez qarışıq atdan götürüb yerə qoyanda bəzirgan hər şeyi Koroğluya danışdı.

Koroğlu və dəliləri döyüş dostlarını xilas etmək üçün hərəkətə keçdilər. Onlar əvvəlcə qarnıyoğun bir kişiyə rast gəldilər. O, heç də dəlilərə məhəl qoymayır və vurğulayır ki, Aslan paşa Koroğlunun üç dəlisini tutub, bu gün onları asacaqlar. Vurğulayır ki, asılanda orda olam, həm də basdırılanda hərəsinin qəbrinə bir daş atam ki, o dünyada mənə əcri-xeyir verə... Bunu eşidən Kosa Səfər alıcı quş kimi onun üstünə şığıyıb xirtdəyindən yapışdı. Murdar ət kimi Koroğlunun qabağına gətirdi. Yerə qoyanda Koroğlu baxdı ki, kişi çoxdan cəhənnəmə vasil olub. Koroğlu onun dəlilərinin necə xatırlandığını dinləyəndə hökm elədi ki, atdan düşüb hərəniz bunun üstünə bir qara daş atın, qoy o dünyada Allah əcr payını çox eləsin. Yeddi min yeddi yüz yetmiş dəli atdan düşüb, hərə onun üstünə bir daş tulladı. O qədər daş yığıldı ki, yekə bir dağ oldu. Deyirlər ki, indi də o dağ qalır. Və lənət etmə obyektinə çevrilib.

Sonra yolda bir qocaya rast gəldilər. Koroğlu bu qoca ilə söhbət aparır. Qoca həmin üç dəliyə azarkeşlik edir və Koroğlunun igidliyinə heyranlığını bildirir. Biləndə ki, onun həmsöhbəti Koroğludur və Aslan paşanın ürəyinə od vurmaq niyyətindədir, qoca ona ağıllı məsləhətlər edir. Koroğlu da aşıq paltarını geyinir və dəlilərini də elə bölüşdürür ki, dava zamanı bu cür strategiya Koroğlu üçün artıq bir qaydaya çevrilmişdi.

Qısası, Koroğlu aşıq paltarında üç dəlinin asılacağı meydana çıxır, əvvəlcə ölümə məhkum olunmuşlara ürək-dirək verir: "Dəlilərim, bu gün dava günüdür. Müxənnət ölkəsi talanmaq gərək". İkinci tərəfdən Aslan paşanın beynini qarşıdırır və yanıldır.

Burada gözlənilmədən haqsız olaraq atasının dar ağacından asıldığına görə qırx atlı ilə dağlara çəkilən və çoxdandır ki, Koroğlu ilə qabaqlaşmaq, kimin daha igid olduğunu bilmək istəyən ünlü igid Giziroğlu Mustafa bəy səhnədə görünür. Doğrudur, o davaya qoşulmaq niyyətində deyildi və meydandan aralı bir təpədən qoç Koroğlunun necə davranacağına göz dikirdi. Bu sonuncu isə hələlik çalıb-oxuyurdu və onun dəlilərinin necə yerləşəcəyini gözləyirdi. Koroğlu oxuya-oxuya əlini bığına çəkdi. Dəlilər töküldülər. Koroğlu bir həmlədə özünü Aslan paşaya çatdırdı. Misri qılıncı çəkməyi ilə Aslan paşanın başının yerə düşməyi bir oldu. Dəlilər tezcə mübarizəyə qoşuldular və orada olanları əzişdirdilər, darmadağın etdilər.

Giziroğlu Koroğlunun heç yerdə gözünə dəyməyəndə anladı ki, Giziroğlu onun şübhəsiz qabağını kəsəcək. Buna görə də özünün xilas etdiyi qəhrəman və qənimətlə dəliləri Çənlibelə doğru yola saldı. Özü isə dağ yolu ilə getdi və Qıratı yavaş-yavaş çay kənarı ilə sürməyə başladı.

Koroğlu baxdı gördü ki, Giziroğlu Mustafa bəy öz Alapaça atının üstündə elə gəlir, elə gəlir ki, tozu dumana qatıb, dumanı toza. Koroğlu qanrılıb geri dönüb baxmaq istəyirdi ki, təpəsinə bir əmud dəydi və Koroğlu atın üstündə özünü saxlaya biməyib təpəsi üstə yerə gəldi, yumbalanıb çaya düşdü. Giziroğlu qılıncı çəkdi ki, onun başını kəssin. Lakin Koroğlu cəld sudan çıxıb onun əmudunu götürdü, Giziroğlunun təpəsinə elə bir əmud vurdu ki, bu dəfə də Giziroğlu dığırlanıb çaya düşdü. Halbuki qalxıb sudan çıxmaq istəyəndə Koroğlu əlini uzadıb yapışdı onun əlindən, çəkib çıxartdı bayıra. Davanı başlamaq üçün qılınca əl atdı. Lakin Giziroğlu onu saxladı və dedi: "Koroğlu, əl saxla! Sənin mənimlə ədavətin-zadın yoxdur ki... Mən istəyirdim biləm, görəm, sən güclü olarsan, ya mən? Onu da ki gördüm. Day bundan sonra bizim vuruşmağımız axmaqlıqdı, əl ver, dost olaq!" Doğrudan da Koroğlu və Giziroğlu əl verdilər, görüşdülər. Bir-biri ilə dost olub ayrıldılar. Koroğlu Çənlibelə tərəf, Giziroğlu da öz dağlarına tərəf yola düşdü *(Bax: "Koroğlu", səh. 247-248).*

Qaydaya görə, dastanın süjeti bu şənliklə bitməli idi, lakin daha bir epizodu da Aşıq Cünun təklif edir. Bu da, fikrinmcə, bir növ Qafqaz igidlərinin ənənəsinin anlaşılması üçün diqqətə layiqdir. O cümlədən, Giziroğlunun öz adamları kinayə ilə ondan soruşurlar: "Nə oldu? Hanı Koroğlunun başı?" O, Koroğlu ilə təkbətək döyüş barədə onlara ətraflı danışır, lakin onun adamları ona inanmırlar. Onda Giziroğlu təklif edir ki, getsinlər Koroğlunun yanına və özündən soruşsunlar. Əgər mərd adamdırsa, düzünü deyər. Onlar da atlanıb Çənlibelə doğru getdilər. Lakin Koroğlu və dəliləri yeyib-içməkdə idilər. Onların kefini pozmağın heç insafdan olmadığını hesab edərək məclisin başa çatdırılmasını gözlədilər. İkinci tərəfdən isə, kef zamanı Nigar xanım Koroğluya müraciət edir: Ay Koroğlu, sən ki belə iş üzü bilənsən, igidsən, görəsən bu dünyada sənin kimi ikinci adam da var, ya elə anan səni tək doğub? Koroğlu Aşıq Cünunun sazını əlindən aldı, basdı bağrına. O, bu şeiri ilə Giziroğlunu tərif etdi:

*"Hay deyəndə haya basar,*
*Huy deyəndə huya basar,*
*Koroğlunu çaya basar,*
*Giziroğlu Mustafa bəy!"*

Koroğlu sözünü qurtaran kimi Giziroğlu Mustafa bəy gizləndiyi yerdən çıxıb məclisə gəldi və dedi: "Koroğlu, sən doğrudan da mərd adamsan. Ancaq özgəsini çox şişirdib, özünü çox kiçildirsən. Dayan, indi mən düzünü danışacağam" *(Bax: Elə orada, səh. 258).*

Beləcə onlar bir-birilə qardaş oldular.

Bu epizoddan Qafqazlı, o cümlədən azərbaycanlı igidlərin qəbul olunmuş qaydası aydınca görünür: özünü tərifləmək deyil, eləcə də layiqli rəqibini tərifləmək. İndi "Dədə Qorqud" eposunu, igidin özünü öyməsinin, şan-şöhrətləndirməsinin necə pisləndiyini xatırlayaq və bu ənənənin oğuz tayfaları üçün tamamilə qədim olduğu aydın olar.

Elə bu dastanla ayırd edilir ki, oğuz igidləri xanımlara və onların istəyinə böyük hörmət bəsləyirlər, onların istəklərinin yerinə yetirilməsi üçün canlarından keçməyə hazırdırlar.

Burada ata-oğul qayğısı və ana-oğul məhəbbəti böyük ustalıqla verilmişdir. Elə Eyvaz durna ovuna gedəndə Koroğlu və Nigar xanımın ehtiyatlanmaqlarını və qorxmaqlarını xatırlayaq. Sonra onların zindana salınmasına görə necə nalə çəkir:

*"Başı ərşə duran dağlar,*
*Dağlar, Eyvazı neylədiz?!*
*Üç igidi udan dağlar,*
*Dağlar Eyvazı neylədiz?!"*

Və dağları hədələyir, qarğasa daşı tökülər, borandan açılmaz başı, düşər daşı, qalar leşi *(Bax: Elə orada, səh. 235).* Bu acılardan pələngə dönmüş ananın yaralı ürəyinin ah-naləsidir. Koroğlu da az coşmayıb və döyüşə getməyə ürəklidir *(Bax: Elə orada, səh. 235).*

Elə bu boyda cavanlığında özünə görə bir kişi olan, elə mərd ki, düşmənə arxa çevirməyən qoca bir növ maraqlı görünür *(Bax: Elə orada, səh. 228).* Yüz yaşı keçmiş qoca şikayət edir: "Neynim, qocalığın üzü qara olsun. İndi mənim yüz yaşdan artıq yaşım var. Əlimdən bir şey gəlmir. Atalar deyiblər, adam ki, əli ilə iş görə bilmədi, güc verər dilinə. Dil də ki, oldu bağlı, ixtiyarı oldu bəylər, paşalar əlində, onda əlac qalır gözə. Adam dəm verər gözünün yaşına" *(Bax: Elə orada, səh. 238).* Bu gətirilən çıxarış qoca kişinin sarsılmaz ruhundan və o baxış dairəsindən bizə nəql edir ki, igid heç zaman düşmənə arxa çevirməz. Elə burada onun savaşda yararlı olmadığı üçün narahatlığı və ürək ağrısı bəyan olunubdur. Qədim müdrikliyə müraciət edir, qılınc kəsmədiyini dil kəsməlidir. Lakin ədalətsizlik zamanı dil bağlı olanda, onun da ixtiyarı bəylər, paşalar əlində olanda, ağlamaq yeganə əlac hesab olunur. Bax, bu adi, qoca kəndlinin səmimi etirafıdır. Eləcə də Koroğluya sadiqlikdə heç kimdən geri qalmayan bəzirgan Xoca Əzizi unutmamalıyıq. Bunu qeyd etmək ona görə münasibdir ki, ümumi təhlil olunan eposda Koroğlunun həmişə talan etdiyi tacirlərin dairəsi mənfi olaraq təsvir edilmişdir. Müəyyən olunduğu kimi, tacirə qarşı bu mənfi münasibət təkcə peşəsi ilə deyil, eləcə də onların dözülməz və hiyləgər xarakteri ilə şərtlənir ki, bu barədə də aşağıda əmin olarıq.

(davamı gələn sayda)

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2023-CÜ İL
№ 009 (180)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# MƏKTƏB EKSKURSİYALARI İLƏ BAĞLI MƏHDUDİYYƏT GÖTÜRÜLÜB



**Məktəb ekskursiyaları ilə bağlı məhdudiyyət qaldırılıb. Bu barədə Gürcüstan Təhsil və Elm Nazirliyi ölkənin təhsil resurs mərkəzlərinə məlumat göndərib. Sənəddə ekskursiya üçün nəzərdə tutulmuş transportun sürücüsünün öhdəlikləri də ətraflı şəkildə qeyd edilib.**

"Tədris ilinin sonuna yaxın məktəb ekskursiyalarının həyata keçirilməsi ilə əlaqədar tənzimləmələrin dəqiqləşdirilməsi üçün müraciətlər artıb.

Bildiyiniz kimi, ötən iki il ərzində nazirlik tərəfindən ölkədə olan pandemiya vəziyyətini nəzərə almaqla məktəb ekskursiyalarının 150 km radiusda həyata keçirilməsi tövsiyə olunurdu. Bu qərar epidemioloji vəziyyətin yaxşılaşdırılmasına xidmət göstərirdi. Hazırda mövcud olan stabil epidemioloji vəziyyəti nəzərə almaqla qeyd olunan məhdudiyyət vacib deyil.

Məktəb ekskursiyaları ilə əlaqədar, "Yol hərəkəti haqqında" Gürcüstan qanunu, "Ümumtəhsil müəssisəsi şagirdlərinin ekskursiyalar həyata keçirməsi qaydasının təsdiqlənməsi haqqında" Gürcüstanın təhsil, elm mədəniyyət və idman nazirinin 2019-cu il 31 may tarixinə olan 719 nömrəli sərəncamı kimi tənzimləmələr qüvvədə qalır.

"Yol hərəkəti haqqında" qanuna görə, ekskursiya məktəbəqədər təhsil müəssisəsi və ya ümumtəhsil müəssisəsi tərəfindən təşkil edilmiş əyləncəli, maarifləndirici, yaxud təhsillə bağlı tədbirdir. Bu tədbir sərnişinlərin nəqliyyat vasitəsi ilə daşınmasını nəzərdə tutur. Tədbirin təşkil edilməsi haqqında müəssisə direktoruna hüquqi akt verilib.

"Yol hərəkəti haqqında" Gürcüstan qanunu ilə ekskursiya çərçivəsində nəqliyyat sürücüsünün öhdəlikləri də nəzərə alınıb, həmçinin:

Məktəb ekskursiyası zamanı sürücülük edən şəxs Gürcüstan Daxili İşlər Nazirliyinin səlahiyyətli şəxsi tərəfindən tələb edildiyi halda özü ilə götürməli olduğu aşağıdakı sənədləri təqdim etməlidir:

1. Son 6 ay ərzində verilmiş, nəqliyyat vasitəsinin dövri texniki baxışdan keçirildiyini təsdiq edən sənəd.

2. Müvafiq tibbi müəssisə və ya dövlət ekspert müəssisələri tərəfindən son 1 ay ərzində verilmiş narkoloji yoxlayış haqqında arayış. Müvafiq arayış sürücünün narkotik vasitədən istifadə etməməsi faktını və narkoloji qeydiyyatda olmadığını təsdiqləyir.

3. Ümumtəhsil müəssisəsinin direktorunun hüquqi aktı və ya onun təsdiqlənmiş surəti. Həmin sənəddə ən azı ekskursiyanın təşkilatçısı olan müəssisə, müəssisənin ünvanı, direktorun kimliyi, ekskursiyanın yetkinlik yaşına çatmış rəhbərinin kimliyi, ekskursiya nəzərdə tutulmuş bütün bələdiyyələrin adı, ekskursiya çərçivəsində gedilməsi nəzərdə tutulan təxmini məsafə qeyd olunub.

Sürücünün müvafiq kateqoriyada nəqliyyat vasitəsinin idarə edilməsi hüququnu əldə etməsindən 5 il keçməlidir.

Ekskursiya çərçivəsində nəqliyyat vasitəsinin hərəkəti zamanı sərnişinlərin sayı həmin nəqliyyat vasitəsini hazırlayan zavod tərəfindən müəyyən edilmiş oturacaqların sayından çox olmamalıdır.

Ekskursiya çərçivəsində nəqliyyat vasitəsinin hərəkəti zamanı bütün sərnişinlər təhlükəsizlik kəmərindən istifadə etməlidirlər.

Ekskursiyada fiziki imkanları məhdud şəxsin iştirak etməsi halında onun ehtiyacları nəzərə alınmalıdır.

Əgər ekskursiya zamanı gediləcək təxmini məsafə 500 km-dən çoxdursa, sürücünün yanında qanunla tətbiq edilmiş tələbləri qane edən şəxs olmalıdır.

Ekskursiya çərçivəsində nəqliyyat vasitəsində yanğınsöndürən və ilkin tibbi yardım qutusu saxlanılmalıdır".

*Mənbə: etaloni.ge*

# MUSTAFA SƏDİ OĞLUNUN KİTABLARININ TƏQDİMATI OLUB



Qardabani rayonunun Kosalı kəndində Mustafa Sədi oğlunun "Vahid komandanlıq əsasında" və "Bir Kosalı gəncinin yeddi günlük müharibəsi" adlı kitablarının təqdimatı keçirilib.

Kosalı məktəbində baş tutan təqdimatda yerli dövlət rəsmiləri, ziyalılar, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən müəllif Mustafa Sədi oğlu özü və kitabları haqqında danışıb.

Tədbir iştirakçıları onun əsərlərində hərbi vətənpərvərlik mövzularına xüsusi yer verdiyini, zəhmətkeş və sülhsevər Gürcüstan azərbaycanlılarının Gürcüstanın müstəqilliyi uğrunda gürcü xalqı ilə birlikdə çiyin-çiyinə mübarizə aparmalarından bəhs etdiyini qeyd ediblər.

# AVROPA İTTİFAQI GÜRCÜSTANA 30 MİLYON AVRO AYIRACAĞINI TƏSDİQLƏYİB



Avropa İttifaqı (Aİ) Gürcüstanın müdafiə sektorunun dəstəklənməsi məqsədilə növbəti yardım paketini təsdiqləyib. Bu dəfə Aİ Gürcüstana 30 milyon avro ayıracaq. Bu barədə Aİ Şurasının bəyanatında deyilir. Bildirilir ki, Avropa Sülh Fondu çərçivəsində ayrılmış yardım Gürcüstanın milli təhlükəsizliyinin gücləndirilməsinə, müdafiə sektorunun sabitliyinin və dözümlülüyünün dəstəklənməsinə yönəldiləcək.

Gürcüstana ayrılacaq 30 milyon avro üçillik dövrü əhatə edəcək. Vəsait müdafiə xarakterli texniki vasitələrin alınmasına, tədarüklərin və xidmətlərin maliyyələşdirilməsinə, ehtiyac duyulduğu təqdirdə texniki təlimlərin keçirilməsinə sərf ediləcək. Bu sıraya mühəndis, komanda və nəzarət, tibbi, logistika və kiber müdafiə vasitələri daxildir.

Qeyd edək ki, Avropa İttifaqı bundan əvvəl Gürcüstana 2022-ci ildə 20 milyon avro, 2021-ci ildə isə 12,75 milyon avro yardım ayırmışdı.

# BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU XƏTTİ İLƏ 24 MİLYON TONDAN ÇOX YÜK DAŞINIB



Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti ilə indiyə qədər 24 milyon tondan çox yük daşınıb. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb.

"BTQ-nin tikintisinə başlanılanda o, "əsrin layihəsi" adlandırılıb. Təkcə 2022-ci ildə dəmir yolu xətti ilə 691 min ton yük daşınıb. BTQ sayəsində yüklər Pekindən (Çin) Londona (Böyük Britaniya) 12-15 günə çatdırıla bilir. Halbuki, dəniz yolu ilə, Afrikadan keçməklə Avropadan Asiyaya yükdaşımaları 45-62 gün ərzində həyata keçirilir. Rusiya marşrutundan istifadə edərkən isə yüklərin Çindən Avropaya çatdırılması 32 gün çəkir. Bu mənada Türkiyənin dünya ticarətindəki rolu artıb", – deyə Türkiyənin sabiq nəqliyyat, gəmiçilik və kommunikasiya naziri Əhməd Arslan bildirib.

Xatırladaq ki, BTQ 30 oktyabr 2017-ci ildə açılıb. Dəmir yolu xətti Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Ümumi uzunluğu 846 kilometr olan xəttin 504 kilometrlik hissəsi Azərbaycan, 263 kilometrlik hissəsi Gürcüstan, 79 kilometrlik hissəsi isə Türkiyə ərazisindədir. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.